AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına Dair Qısa İcmal

Mart 2020

# M ü n d ə r i c a t

**FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı** ..... 3
**Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal** ..... 4
**Buğdanın Rusiya Federasiyasında qiyməti** ..... 7
**Arpanın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 7
**Düyünün dünya bazarı qiymətinə dair qısa icmal** ..... 9
**Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal** ..... 10
**Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal** ..... 11
**Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 13
**Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 14
**Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal** ..... 15
**Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 16
**Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal** ..... 17
**Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 18
**Soyanın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 18
**Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 19
**Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 21
**Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 21
**Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 22
**Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal** ..... 23
**Südün dünya bazarı qiymətinə dair qısa icmal** ..... 25
**Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 27

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

***(FAO-nun 2 Aprel 2020-ci il tarixli açıqlaması)***

***FAO-nun ərzaq qiymətləri indeksi 2020-ci ilin mart ayında daha da azaldı.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2020-ci ilin mart ayında orta hesabla 172.2 bənd təşkil edib, fevral ayı ilə müqayisədə 4.2% (7.8 bənd) **az,** ötən ilin mart ayı ilə müqayisədə isə 2.8% (4.6 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** mart ayında orta hesabla 164.6 bənd təşkil edib, fevral ayı ilə müqayisədə 1.9% (3.2 bənd), ötən ilin mart ayı ilə müqayisədə isə 0.1% (0.2 bənd) **azdır.**
- **Bitki Yağlarının Qiymət İndeksi** mart ayında orta hesabla 139.1 bənd təşkil edib, fevral ayı ilə müqayisədə 12.0% (19.0 bənd) **az,** ötən ilin mart ayı ilə müqayisədə isə 9.0% (11.4 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** mart ayında orta hesabla 176.0 bənd təşkil edib, fevral ayı ilə müqayisədə 0.6% (1.0 bənd) **az**, ötən ilin mart ayı ilə müqayisədə isə 7.0% (11.6 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** mart ayında orta hesabla 203.5 bənd təşkil edib, fevral ayı ilə müqayisədə 3.0% (6.4 bənd), ötən ilin mart ayı ilə müqayisədə isə 0.4% (0.9 bənd) **azdır.**
- **Şəkər Məhsullarının Qiymət İndeksi** mart ayında orta hesabla 169.6 bənd təşkil edib, fevral ayı ilə müqayisədə 19.1% (40.1 bənd), ötən ilin mart ayı ilə müqayisədə isə 6.0% (10.8 bənd) **azdır.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2002-2004-cü illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2002-2004-cü illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 9 Aprel 2020-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2019/2020-ci məhsul ili üzrə qlobal buğda istehsalı həcminin rekord həddə çataraq 764 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2017/2018 | 2018/2019 | 2019/2020 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 263 | 284 | 278 |
| | İstehsal | 763 | 731 | 764 |
| | Cəmi təklif | 1026 | 1015 | 1043 |
| **TİCARƏT** | İdxal / İxrac | 182 | 174 | 183 |
| **TƏLƏB** | Ərzaq və toxum | 595 | 598 | 606 |
| | Yem | 147 | 139 | 144 |
| | Cəmi istifadə | 742 | 737 | 750 |
| **İLİN SONUNA QALIQ** | | 284 | 278 | 293 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %*** | | ***38.0*** | ***38.0*** | ***39.0*** |

**Mənbə:** *www.uswheat.org*

- Qlobal miqyasda məcmu təklifin həcm göstəricisinin 2018/2019-cu məhsul ili ilə müqayisədə 28 milyon ton artaraq 1043 milyon ton olacağı təxmin edilir.
- Dünya buğda ticarətinin 2019/2020-ci məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 5.17% arataraq 183 milyon ton olacağı proqnozlaşdırılır.
- 2018/2019-cu məhsul ilinə nəzərən cari məhsul ilində əsas buğda ixracatçısı olan ölkələrdə ixrac edilə bilən buğdanın həcminin 1.93% artaraq 211 milyon ton olması proqnozlaşdırılır.
- 2018/2019-cu məhsul ilinə nəzərən 2019/2020-ci məhsul ilində dünyada buğda üzrə istehlakın 1.76% artaraq 750 milyon ton olacağı proqnozlaşdırılır.

- Proqnozlar reallaşacağı təqdirdə qlobal buğda ehtiyatlarının həcminin 2018/2019-cu məhsul ili ilə müqayisədə 5.4% artaraq 293 milyon ton olacağı gözlənilir. Buna uyğun olaraq, dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi də 39.0% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 63 milyon tona düşməsi, istehsal həcminin isə 2018/2019-cu məhsul ili ilə müqayisədə 20 milyon ton çox (388 milyon ton) olacağı gözlənilir. Bununla da, əsas ixracat ölkələri üzrə ümumi təklif səviyyəsi 10 milyon ton çox (451 milyon ton) olacaq.
- Çində buğda ehtiyatlarının həcminin 2018/2019-cu məhsul ili ilə müqayisədə 7.14% artaraq 150 milyon tona çatması gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2019/2020-ci məhsul ilində istehsal həcminin 4.84% artaraq 130 milyon ton olması, ixracın isə 0.66% azalaraq 60.6 milyon ton olması proqnozlaşdırılır.







**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

**Mənbə:** *www.uswheat.org*

- **2016-2018-ci illər ərzində buğdanın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında buğdanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.75% azalaraq 170.9 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Buğdanın Rusiya Federasiyasında qiyməti

- **Son 1 il ərzində Rusiyadan ixrac edilən buğdanın qiymətində əsasən azalma trendi müşahidə olunmuşdur. 2020-ci ilin mart ayında 1 ton buğdanın ixrac qiyməti əvvəlki aya nisbətən 4.08% azalaraq 211.8 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**
- **2019-cu ilin mart ayından etibarən Rusiyanın daxili bazarında buğdanın qiymətində müşahidə olunan azalma 2019-cu ilin avqust ayından etibarən artım trendi ilə əvəz olunmuşdur. 2020-ci ilin mart ayında 1 ton buğdanın qiyməti əvvəlki aya nisbətən 10.85% azalaraq 180.7 ABŞ dolları olmuşdur.**
- **2020-ci ilin mart ayı ərzində Qara dəniz və Azov dənizi portlarında buğdanın 1 tonunun qiyməti müvafiq olaraq 205.0 ABŞ dolları ilə 219.0 ABŞ dolları və 192.0 ABŞ dolları ilə 202.0 ABŞ dolları arasında dəyişmişdir.**




**Mənbə:** *http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic*




**Mənbə:** *https://www.apk-inform.com/en/prices*

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Arpanın dünya bazarı qiymətində 2016-2018-ci illər ərzində artım trendi müşahidə olunsa da 2019-cu ilin son rübündə qeydə alınan azalma 2020-ci ilin ilk rübündə də davam etmişdir. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında arpanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 8.21% azalaraq 101.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- **Düyünün dünya bazarı qiymətində 2016-2018-ci illərdə artım trendi müşahidə olunmuşdur. 2020-ci ilin ilk rübündə düyünün 1 tonunun dünya bazarı qiyməti 2019-cu ilin son rübünə nisbətən 11.82% artaraq 443.5 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 9.62% artaraq 471.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qarğıdalının dünya bazarı qiymətində əsasən artım qeydə alınmışdır. Aylıq müşahidə dövründə isə qarğıdalının dünya bazarı qiymətində 2019-cu ilin iyun ayından sonra azalma trendi qeydə alınsa da yenidən qeyri-stabillik müşahidə olunur. 2020-ci ilin mart ayında qarğıdalının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 3.85% azalaraq 162.2 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

**Dünya üzrə pambıq balansına əsasən 2019/20-ci məhsul ili ərzində pambığın istehsalındakı artımla yanaşı, qlobal ehtiyatlarda da 2018/19-cu məhsul ili ilə müqayisədə bir qədər artım müşahidə olunmuşdur. Çinin pambıq ehtiyatlarında azalma müşahidə olunduğuna baxmayaraq digər ölkələrdəki artım qlobal ehtiyatlarda artıma gətirib çıxarmışdır. Həmçinin, dünya pambıq istehsalında müşahidə olunan artım da qlobal ehtiyatlardakı artıma səbəb olmuşdur.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*)**

| Milyon ton | 2014/2015 | 2015/2016 | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 proqnoz |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 21.8 | 23.2 | 19.6 | 17.5 | 17.6 | 17.5 |
| **İstehsal** | 26.0 | 20.9 | 23.2 | 26.9 | 25.8 | 26.5 |
| **Təklif** | 47.7 | 44.2 | 42.9 | 44.4 | 43.4 | 43.9 |
| **Fabrik istehlakı** | 24.4 | 24.7 | 25.3 | 26.7 | 26.2 | 25.7 |
| ***İlin sonuna qalıq*** | 23.3 | 19.6 | 17.5 | 17.6 | 17.5 | 18.2 |
| ***Qalıq/İstehlak nisbəti*** | *95.2%* | *79.6%* | *69.1%* | *65.8%* | *66.6%* | *70.6%* |

**Cədvəl 2. Çinin pambıq balansı**

| Milyon ton | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 proqnoz |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 12.3 | 10.0 | 8.3 | 7.8 |
| **İstehsal** | 5.0 | 6.0 | 6.0 | 5.9 |
| **Təklif** | 18.4 | 17.2 | 16.4 | 15.5 |
| **Fabrik istehlakı** | 8.4 | 8.9 | 8.6 | 7.9 |
| ***İlin sonuna qalıq*** | 10.0 | 8.3 | 7.8 | 7.5 |
| ***Qalıq/İstehlak nisbəti*** | *119.1%* | *92.4%* | *89.8%* | *94.1%* |

**Cədvəl 3. Çin daxil olmadan dünya pambıq balansı**

| Milyon ton | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 proqnoz |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.3 | 7.5 | 9.3 | 9.7 |
| **İstehsal** | 18.3 | 21.0 | 19.8 | 20.5 |
| **Təklif** | 25.6 | 28.5 | 29.2 | 30.3 |
| **Fabrik istehlakı** | 16.9 | 17.8 | 17.6 | 17.8 |
| ***İlin sonuna qalıq*** | 7.5 | 9.3 | 9.7 | 10.5 |
| ***Qalıq/İstehlak nisbəti*** | *41.6%* | *49.0%* | *49.2%* | *54.4%* |

**Mənbə**: *http://www.cottoninc.com/corporate/Market-Data/MonthlyEconomicLetter/*

- **2016-2018-ci illər ərzində pambığın dünya bazarı qiymətində artım trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin aprel ayından qeydə alınan azalma trendi sentyabr ayından artım ilə əvəzlənsə də 2020-ci ilin fevral ayından pambığın dünya bazarı qiymətində azalma müşahidə olunur və 2020-ci ilin mart ayında pambığın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 11.76% azalaraq 1.50 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında xam ipəyin qiymətində keçən ilin mart ayı ilə müqayisədə azalma müşahidə olunmuşdur. 2020-ci ilin mart ayında 1 ton xam ipəyin qiyməti əvvəlki aya nisbətən 17.0% azalaraq 44.58 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2020-ci ilin mart ayı ərzində xam ipəyin dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur və 1 tonunun qiyməti 53.50 min ABŞ dolları ilə 46.36 min ABŞ dolları arasında dəyişmişdir.**




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-week--.html

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında quru baramanın qiymətində keçən ilin mart ayı ilə müqayisədə azalma müşahidə olunmuşdur. 2020-ci ilin mart ayında 1 ton quru baramanın qiyməti əvvəlki aya nisbətən 17.83% azalaraq 14.15 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2020-ci ilin mart ayı ərzində quru baramanın dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur və 1 tonunun qiyməti 17.19 min ABŞ dolları ilə 14.65 min ABŞ dolları arasında dəyişmişdir.**




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html




**Mənbə:** *http://www.sunsirs.com/uk/sdetail-week--.html*

# Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında günəbaxan yağının qiymətində 2016-2018-ci illər ərzində ciddi azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə günəbaxan yağının dünya bazarı qiymətində 2019-cu ilin noyabr ayından etibarən müşahidə olunan artım trendi 2020-ci ilin yanvar ayında ən yüksək həddinə çatmış və azalma ilə əvəz olunmuşdur. 2020-ci ilin mart ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 7.30% azalaraq 847.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices

# Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində yaşıl çayın dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında yaşıl çayın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 2.66% azalaraq 260.1 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində zeytun yağının dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə zeytun yağının dünya bazarı qiymətində davam edən azalma trendi 2020-ci ilin fevral ayında artım ilə əvəz olunmuşdur. 2020-ci ilin mart ayında zeytun yağının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 2.19% artaraq 2.80 min ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində şəkərin dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə şəkərin dünya bazarı qiymətində 2019-cu ilin oktyabr ayından etibarən müşahidə olunan artım trendi 2020-ci ilin fevral ayında ən yüksək həddinə çatmış və azalma ilə əvəz olunmuşdur. 2020-ci ilin mart ayında şəkərin 1 kiloqramının qiyməti əvvəlki ay ilə müqayisədə 22.02% azalaraq 0.262 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices

# Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində soyanın dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. Son bir il ərzində soyanın dünya bazarı qiymətində qeyri-müəyyənlik qeydə alınmışdır. 2020-ci ilin mart ayında soyanın 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 1.87% azalaraq 319.3 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində mal ətinin dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. 2019-cu ilin mart ayından mal ətinin dünya bazarı qiymətində əsasən artım trendi müşahidə edilmiş, noyabr ayında kəskin artım qeydə alınmış və azalma ilə əvəz olunmuşdur. 2020-ci ilin mart ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 7.03% azalaraq 4.23 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**



**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qoyun ətinin dünya bazarı qiymətində artım trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında qoyun ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 2.10% artaraq 2.43 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2016-2018-ci illər ərzində donuz ətinin dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında donuz ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 7.38% artaraq 1.31 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə***:* *https://www.imf.org/en/Research/commodity-prices*

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında 2016-2018-ci illər ərzində quş ətinin qiymətində artım müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin mart ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 8.74% azalaraq 2.61 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: *https://www.imf.org/en/Research/commodity-prices*

# Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-ci ildə qaba yunun 1 tonunun dünya bazarı qiyməti əvvəlki illərlə müqayisədə kəskin şəkildə artaraq 1.52 min ABŞ dolları olmuşdur. 2020-ci ilin mart ayında qaba yunun 1 tonunun dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 12.28% azalaraq 1.00 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.imf.org/en/Research/commodity-prices

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-cu ildə ABŞ-da süd xammalının bazar qiymətlərində ötən illərə nəzərən kəskin artım müşahidə olunmuşdur. Avropa İttifaqı və Yeni Zelandiyada 2019-cu ildə ötən iki il ilə müqayisədə azalma qeydə alınsa da, bu göstərici 2015-ci ilə nəzərən yüksəkdir. Aylıq trenddə isə 2020-ci ilin fevral ayında süd xammalının dünya üzrə sahədən satış qiymətində ABŞ, Avropa İttifaqı və Yeni Zelandiyada azalma müşahidə olunmuşdur.**




**Mənbə**:https://www.clal.it/en/index.php




**Mənbə**: https://www.clal.it/en/index.php

➢ **Süd xammalının dünya bazarı qiymətindəki artım trendi quru südün dünya bazarı qiymətində də özünü göstərmişdir. Belə ki, 2019-cu ildə quru südün dünya bazarı qiymətində ötən illərə nisbətən artım trendi qeydə alınmışdır. Aylıq trenddə isə 2020-ci ilin mart ayında əvvəlki ay ilə müqayisədə quru südün 1 tonunun dünya bazarı qiymətində ABŞ və Avropa İttifaqında azalma qeydə alınmışdır.**




**Mənbə**: https://www.clal.it/en/index.php




**Mənbə**: https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2017-2019-cu illərdə dünya bazarında kalsium fosfatın və diamonium fosfatın qiymətində əsasən azalma trendi, potassium xloridin, üçqat super fosfat və karbamidin qiymətində isə əsasən artım trendi müşahidə olunmuşdur. 2020-ci ilin mart ayında əvvəlki ay ilə müqayisədə diamonium fosfatın və kalsium fosfatın qiymətində azalma, karbamidin qiymətində artım, potassium xloridin və üçqat super fosfatın qiymətində isə stabillik müşahidə olunmuşdur.**

**2017-2019-cu illər və 2020-ci ilin yanvar-mart ayları ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton**




**Mənbə***:* *http://www.indexmundi.com/commodities/?commodity=potassium-chloride*
*http://www.indexmundi.com/commodities/?commodity=dap-fertilizer*
*http://www.indexmundi.com/commodities/?commodity=rock-phosphate*
*http://www.indexmundi.com/commodities/?commodity=triple-superphosphate*
*http://www.indexmundi.com/commodities/?commodity=urea*